# Gül Verən Əl

**Bəxtiyar Vahabzadə**

Onda qəzəb vardı, səndə xoş qılıq
O, pislik elədi, sənsə yaxşılıq
Pisliyin əvəzi yaxşılıq oldu
Qəzəb unuduldu, kin unuduldu,

Mən bu barışığı gözümlə gördüm
Yaxşılıq dərsindən ibrət götürdüm.
Sən də bir insansan, o da bir insan
Nə sən ondan əskik, nə də o səndən.

Yaxşılıq gətirər yaxşı əməl də.
Gül qoxusu qalar gül verən əldə.

Avqust, 2002

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004